# AKBA ÜZVLÜK QAYDALARI

## A. Üzvlük şərtləri

### 1. Ümumi müddəalar

1.1. Bu Üzvlük Qaydaları Azərbaycan Kapital Bazarları Assosiasiyası (AKBA) ictimai birliyinin Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır və Birliyin üzvlüyə qəbul, üzvlük münasibətlərinin idarə edilməsi, etik davranışın təmin edilməsi və üzvlüyə xitam prosedurlarını tənzimləyir.

1.2. Qaydalar Assosiasiyanın prinsipləri olan şəffaflıq, bərabərlik, obyektivlik, etik davranış, hesabatlılıq və haqsız rəqabətin yolverilməzliyinə əsaslanır.

1.3. Üzvlük Qaydaları bütün üzvlər üçün məcburidir.

### 2. İştirak növləri

2.1. AKBA-da iştirak iki formada mümkündür: Üzvlər və Köməkçilər.

2.2. Yeni müraciət edən hüquqi və fiziki şəxsə "Üzv" və ya "Köməkçi" statusu arasında seçim imkanı verilir.

2.3. Bütün üzvlər Nizamnamə və bu Qaydalar qarşısında bərabər hüquqlara malikdir.

### 3. Üzvlüyə qəbul şərtləri

3.1. Üzvlüyə qəbul üçün müraciət edən hüquqi və ya fiziki şəxs kapital bazarı ilə fəaliyyət və ya maraq əlaqəsinə malik olmalı, işgüzar reputasiyası qüsursuz olmalı və etik biznes davranışı prinsiplərinə riayət etməlidir.

3.2. Müraciət sənədləri: doldurulmuş üzvlük ərizəsi, qeydiyyat yaxud şəxsiyyət sənədi, fəaliyyət haqqında qısa məlumat.

3.3. Üzvlüyə qəbul proseduru Direktorlar Şurasının maksimum 1 ay müddətində müraciətə baxışı və təsdiqi əsasında həyata keçirilir.

### 4. Üzvlərin hüquqları

– Ümumi Yığıncaqda iştirak və səsvermə;
– Seçkili orqanlarda təmsilçilik;

– Məlumat əldə etmək;
– Tədbir və komitə fəaliyyətində iştirak;
– Maraqların müdafiəsi üçün müraciət etmək.

**5. Üzvlərin vəzifələri**

– Nizamnamə və Qaydalara əməl etmək;
– Qəbul edilmiş qərarlara əməl etmək;
– Etik davranış prinsiplərinə riayət etmək;
– Üzvlük haqqını ödəmək;
– AKBA fəaliyyətində aktiv iştirak etmək.

**6. Üzvlük haqqı**

Haqqın məbləği Direktorlar Şurası tərəfindən müəyyən edilir və aylıq yaxud illik qaydada ödənilir.

**7. Etik pozuntular və fəsadlar**

Pozuntular araşdırılır və rəsmi xəbərdarlıqdan tutmuş üzvlükdən çıxarılmaya qədər tədbirlər tətbiq edilə bilər. (ətraflı bax: B bölməsi).

**8. Üzvlüyə xitam**

Könüllü çıxma, qaydaların pozulması, ödənişlərin gecikdirilməsi, hüquqi şəxsin ləğvi və digər hallarda Direktorlar Şurasının qərarı ilə üzvlüyə xitam verilə bilər.

**9. Dəyişikliklər**

AKBA Direktorlar Şurasının qərarı ilə Üzvlük Qaydalarına dəyişikliklər edilə bilər.

## B. Etik Davranış Prinsipləri

Bu bölmə üzvlərin etik davranış öhdəliklərini daha dəqiq tənzimləmək məqsədilə Üzvlük Qaydalarına əlavə olunur.

**10.1. Korrupsiya və rüşvət qadağası, işgüzar reputasiyanın qorunması**

Üzvlər fəaliyyət zamanı aşağıdakı öhdəlikləri daşıyırlar:

1. Heç bir formada rüşvət, qeyri-qanuni ödəniş, maddi və ya qeyri-maddi üstünlük təklif etməmək və qəbul etməmək;

2. Rəqabət münasibətləri çərçivəsində digər üzvlərin və ya AKBA-nın işgüzar nüfuzuna və reputasiyasına zərər vura biləcək hərəkətlərə yol verməmək, habelə belə nəticələrə səbəb ola biləcək bəyanat, açıqlama və ya digər kommunikasiyalardan çəkinmək;
3. Qanunvericiliyə və beynəlxalq antikorrupsiya standartlarına tam riayət;
4. Hər cür hədiyyə, təltif və digər güzəştlərin yalnız ağlabatan, şəffaf və sənədləşdirilmiş şəkildə edilməsi.

### 10.2. Maraqların toqquşması

Üzvlər aşağıdakı hallardan yayınmalıdır:

- şəxsi, ailəvi və ya maliyyə maraqlarının AKBA və ya bazar iştirakçılarının maraqlarına təsir etdiyi hallar;
- qərar qəbul etməyə təsir göstərən üçüncü tərəf maraqları;
- digər təşkilatların idarə orqanlarında iştirakın maraq toqquşması yaratması;
- potensial toqquşma risklərinin Direktorlar Şurasına yazılı şəkildə dərhal açıqlanmaması.

Maraqların toqquşması faktı avtomatik pozuntu deyil, lakin açıqlanmaması hər zaman pozuntu sayılır.

### 10.3. Hədiyyələr

Üzvlərin verdiyi və qəbul etdiyi hədiyyələr və mükafatlar:

1. Ağlabatan olmalıdır;
2. Qanuni və etik çərçivədə olmalıdır;
3. Rüşvət və ya biznes üstünlüyü məqsədi şübhəsi yaratmamalıdır;
4. Nadir hallarda və biznes məqsədi ilə məntiqi əsaslı şəkildə təqdim olunmalıdır;
5. Nağdsız formada olmalıdır;
6. Qəbul edənin daxili siyasətinə uyğun olmalıdır.

### 10.4. Məlumatların məxfiliyi və kibertəhlükəsizlik

Üzvlər aşağıdakı tələblərə əməl etməlidirlər:

- işgüzar və şəxsi məlumatların məxfiliyinə hörmət etmək;

- AKBA tədbirləri və işgüzar proseslər zamanı əldə olunan məlumatları icazəsiz paylaşmamaq;
- yalnız qanuni biznes məqsədi üçün zəruri məlumatları toplamaq və istifadə etmək;
- məxfi məlumatların üçüncü şəxslərə ötürülməsinin qarşısını almaq;
- kiberhücumlara qarşı münasib təhlükəsizlik tədbirlərindən istifadə etmək.

**10.5. Əqli mülkiyyətin qorunması**

Üzvlər üzərinə götürürlər:

- başqalarına aid əqli mülkiyyət nümunələrindən icazəsiz istifadə etməmək;
- AKBA-ya məxsus loqo, sənəd, konfiqurasiyalar, təqdimatlar və digər materialları yalnız icazə ilə istifadə etmək;
- AKBA-ya təhvil verilmiş materialların üçüncü tərəflərlə icazəsiz paylaşılmaması.

- **10.6. Satınalma və tərəfdaş seçimi**

AKBA tədbirlərində və layihələrində iştirak edən üzvlər:

- satınalma proseslərində ədalətlilik, şəffaflıq və rəqabət prinsipinə əməl etməli;
- təchizatçıları obyektiv meyarlara (keyfiyyət, qiymət, zəmanət, reputasiya) əsasən seçməli;
- təchizatçılara haqsız üstünlük yaratmamalıdır;
- toqquşma yarada biləcək kommersiya münasibətlərindən çəkinməlidirlər.

**10.7. Hökumət və dövlət qurumları ilə münasibətlər**

Üzvlər:

- dövlət orqanları ilə münasibətlərdə maksimum şəffaf və qanunlara uyğun davranmalı;
- təmsilçilik və dövlətlə əməkdaşlıq zamanı saxta məlumat verməməli;
- dövlət qərarlarına qanunsuz təsir göstərməyə cəhd etməməlidirlər.

### 10.8. İş yerində ayrı-seçkilik və təhqirlərin yolverilməzliyi

Üzvlər və üzv təşkilatların nümayəndələri:

- irq, din, yaş, cins, əlillik və ya digər əlamətlərə görə ayrıseçkilik etməməlidir;
- hər cür təhqir və təzyiq davranışları qəti qadağandır;
- AKBA tədbirlərində işgüzar etik normalara uyğun davranmalı;
- hər hansı ayrıseçkilik və təhqir halını İcraçı Direktora və ya Direktorlar Şurasına bildirməlidir.

## 11. Etik pozuntuların araşdırılması

11.1. Etik pozuntu barədə məlumat AKBA Ofisinə və ya Direktorlar Şurasına təqdim edilir.
11.2. Araşdırma müddəti 10 iş günündən çox olmamalıdır.
11.3. Araşdırma zamanı tərəflərdən izahat tələb edilə bilər.
11.4. Pozuntu araşdırıldıqdan sonra aşağıdakı tədbirlər tətbiq edilə bilər:

- yazılı xəbərdarlıq;
- müvəqqəti məhdudiyyət;
- tədbirlərdən və komitələrdən uzaqlaşdırma;
- ağır pozuntular üçün üzvlükdən çıxarılma.